

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 fevral 2025-ci il, şənbə
№ 028 (6856)
Qiymәti 60 qәpik




## Prezident Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb

Bax səh. 2



## Böyük coğrafiyada böyük iqtisadi güc

Bax səh. 2

## Azərbaycan İƏT-ə sədrlik edəcək

Bax səh. 4



## Tahir Budaqov Qırğız Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb

Bax səh. 3

## Davosdan verilən mesajlar

Bax səh. 2

## Rəqabət mühitinin qorunması mühüm vəzifədir

Bax səh. 4

## Gürcüstanda “rəngli inqilab” ssenariləri...

Bax səh. 6

## “Saat yarımlıq” söhbət...

Bax səh. 6

## Delimitasiya işlərinin həyata keçirilməsi ilə bağlı təlimat layihələri müzakirə edilib

Fevralın 14-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya çərçivəsində videokonfrans formatında işçi görüş keçirilib.Görüşdə tərəflər delimitasiya işlərinin həyata keçirilməsi üçün tələb olunan təlimat layihələrini müzakirə edib, həmçinin komissiyaların növbəti əyani görüşünün təşkili ilə bağlı məsələlər üzrə fikir mübadiləsi aparıblar. Tərəflər növbəti görüşün tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.



## USAID-in maliyyə fırıldaqları ifşa olunur

Bax səh. 6

# Azərbaycan-Çin əməkdaşlığı: Davosdan verilən mesajlar



*Ziyafət Əsgərov, Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini.*

Azərbaycan Respublikası müstəqilliyini yenidən qazandıqdan sonra sabitlik, əməkdaşlıq, çoxtərəflilik prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirməyə başlamışdır. Ölkəmiz beynəlxalq sammitlərdə fəal iştirak edərək regional sülhün qorunması və iqtisadi tərəqqinin təmin edilməsi istiqamətində önəmli işlərə imza atmışdır. Respublikamızın beynəlxalq tədbirlərdə aktiv iştirakı, onu qlobal mühitdə etibarlı tərəfdaş və sülhsevər dövlət kimi formalaşdırmışdır. Azərbaycan enerji təhlükəsizliyi, multikulturalizm və humanitar əməkdaşlıq sahələrində də dünya ölkələri ilə genişmiqyaslı əlaqələr quraraq nüfuzunu gücləndirir.

Cari ilin 20 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfər etmişdir. Dövlətimizin başçısı həmin gün Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

Cənab Prezident müsahibəsində ilk növbədə Azərbaycanın son illərdə beynəlxalq arenada əldə etdiyi mühüm uğurlardan bəhs etdi. Ölkəmizin ərazi bütövlüyünü təmin etməsi, Cənubi Qafqaz və Xəzər regionunda strateji mövqeyini möhkəmləndirməsi, qlobal təşkilatlarla əməkdaşlığını genişləndirməsi və beynəlxalq iqtisadi layihələrdə iştirakını artırması bu uğurların əsas göstəriciləridir.

Son illərdə ən mühüm nailiyyətlərimizdən biri də dövlətimizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi olmuşdur. Ölkəmiz bu məqsədə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun şəkildə nail olmuşdur. Təxminən 30 il ərzində Azərbaycanın əsas milli ideyası məhz işğal altındakı torpaqlarını azad etmək idi. Lakin bu müddət ərzində beynəlxalq hüquq normaları effektiv şəkildə işləməmiş və beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar kağız üzərində qalmışdır. Və nəhayət ki, tarixi ədalət İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində tamamilə bərpa olundu.

Dövlət başçısı Azərbaycanın uzun illərdir Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq üçün apardığı danışıqlardan da bəhs etdi. Lakin bu proses hələ də başa çatmayıb. Bunun əsas səbəbi dünya ticarətində mövcud olan proteksionizm, ikili standartlar və qeyri-bərabər şərtlərdir. Azərbaycan bu təşkilata qoşulmaq üçün üstünlükləri və riskləri ciddi şəkildə qiymətləndirir. Ölkəmizin iqtisadiyyatının əsas hissəsi enerji resurslarının ixracına əsaslanır ki, bu da ÜTT üzvlüyü üçün əsas şərt deyil. Lakin qeyri-neft sektorunun inkişafı və yeni bazarlara çıxışın təmin olunması üçün təşkilata qoşulma məsələsi diqqətlə nəzərdən keçirilir. Azərbaycan danışıqlar prosesində ən əlverişli şərtləri əldə etməyə çalışır və iqtisadi maraqlarını qorumağa üstünlük verir.

Cənab Prezidentin müsahibəsində vurğuladığı məsələlərdən biri də Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibət oldu. Belə ki, 2023-cü ildə dövlətlərimiz rəsmi olaraq strateji tərəfdaşlıq Bəyannaməsi imzaladılar. Strateji tərəfdaşlıq qarşılıqlı etimad və birgə maraqlara əsaslanır. Azərbaycan Çinlə təkcə ÜTT-yə üzvlük məsələsində deyil, həmçinin digər beynəlxalq platformalarda da əməkdaşlığını genişləndirmək niyyətindədir.

Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) müşahidəçi deyil, dialoq üzrə tərəfdaş statusuna malikdir. Bu status ölkəmizin təşkilatla daha sıx əlaqələr qurmaq istəyini göstərir. ŞƏT-in əsas üzv ölkələri Azərbaycanla yaxşı və dost münasibətlərə malikdirlər.

Ölkəmizin coğrafi mövqeyi və nəqliyyat infrastrukturu ŞƏT ilə əməkdaşlıqda böyük üstünlüklər yaradır. Azərbaycan Şərqdən Qərbə gedən nəqliyyat yolları üzərində yerləşir və bu, onun regional və qlobal iqtisadi inteqrasiyasını gücləndirir.

Prezident İlham Əliyev Azərbaycanın sosial siyasət sahəsində əldə etdiyi ciddi uğurlardan da bəhs etdi. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar və sosial proqramlar nəticəsində yoxsulluq səviyyəsi təxminən 5 faizə qədər azaldılıb. İqtisadi baxımdan sabit və inkişaf etmiş ölkələr beynəlxalq siyasətdə daha çox təsir gücünə malikdirlər. Azərbaycan iqtisadi və sosial göstəricilərini yaxşılaşdırmaqla, beynəlxalq təşkilatlar və böyük güclərlə daha bərabərhüquqlu əməkdaşlıq qurmağa nail olur.

Ölkə başçımızın müsahibəsində söz açdığı digər məsələ isə dövlətimizin apardığı şaxələnmiş siyasət oldu. Belə ki, Azərbaycanın xarici siyasəti yalnız regional məqsədlərə deyil, eyni zamanda, konkret iqtisadi və strateji maraqlara əsaslanır. Bu çərçivədə ölkəmiz təkcə Çinlə deyil, həm də Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalayıb. Bundan əlavə, Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannamələrimiz də mövcuddur. Bütün bunlar Azərbaycanın qlobal arenada özünü etibarlı tərəfdaş kimi göstərməsinə imkan yaradır. Xarici siyasət daxili siyasətin davamıdır və Azərbaycan bu prinsipi əsas götürərək milli maraqlarına uyğun şəkildə beynəlxalq əlaqələrini formalaşdırır.

Cənab Prezident Azərbaycan ABŞ münasibətlərindən də bəhs etdi. Onun sözlərinə görə iki dövlət arasında münasibət müxtəlif dövrlərdə fərqli dinamikaya malik olub. Prezident Trampın dövründə ikitərəfli əlaqələr müsbət məcrada inkişaf edirdisə, Bayden administrasiyasının siyasəti nəticəsində bu münasibətlərdə müəyyən gərginliklər yaranmışdı. Lakin ABŞ-dakı siyasi dəyişikliklər fonunda yeni bir dövrün başlanması gözlənilir. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, ABŞ-da sabit və balanslı siyasət yürüdülməsi dünya üçün daha təhlükəsiz şərait yaradacaq.

Dövlət başçımız Azərbaycanın beynəlxalq ticarət və logistika sahəsindəki hədəflərindən də söz açdı. Hazırda ölkənin dəniz ticarət limanı 15 milyon ton yük aşırma qabiliyyətinə malikdir, lakin bu həcm yaxın gələcəkdə kifayət etməyəcək. Buna görə də, növbəti 5-6 il ərzində yük daşıma gücünü 25 milyon tona çatdırmağı planlaşdırırıq. Bu məqsədlə dəniz ticarət limanlarının və dəmir yolu infrastrukturunun genişləndirilməsi üçün ciddi maliyyə yatırımları həyata keçirilir.

Azərbaycanın tranzit ölkə olaraq strateji mövqeyi Orta Asiya ilə Avropa arasında mühüm nəqliyyat dəhlizlərini formalaşdırmaq üçün əhəmiyyətlidir. Xəzər dənizi üzərindən Azərbaycana gələn marşrutun əhəmiyyəti artdıqca, ölkəmiz bu imkanlardan maksimum istifadə etməyə çalışır. "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində Çin hökumətinin dəstəyi ilə Azərbaycanın nəqliyyat və logistika imkanları genişlənir. Bu, təkcə iqtisadi inkişafa deyil, həm də regional sabitliyə və təhlükəsizliyə töhfə verir.

Azərbaycanın enerji siyasəti yalnız qazıntı yanacaqlara əsaslanmır. Ölkəmiz əldə etdiyi gəlirləri yaşıl enerjiyə və texnologiyalara yönəltməkdədir. 2027-ci ilə qədər Azərbaycan 2 giqavat, 2030-cu ilə qədər isə 6 giqavat Günəş və külək enerjisi hasil etməyi hədəfləyir. Bu, ölkənin enerji sektorunda bir inqilab olacaq və Azərbaycanın yaşıl keçidə aktiv qoşulduğunu göstərəcək.

Yaşıl texnologiyalar sahəsində Çin istehsalı olan Günəş panelləri və batareyalar Azərbaycan üçün əsas seçimdir. Bu texnologiyaların istifadəsi investorlara keyfiyyətli və rəqabətədavamlı məhsullar təqdim etməyə imkan yaradır. Azərbaycanın enerji təchizatı üzrə işçi qrupları ən yaxşı batareyaların Çində istehsal edildiyini müəyyən edərək, bu sahədə əməkdaşlığı gücləndirir.

Prezident İlham Əliyevin Davosda Çin mediasına verdiyi müsahibə, Azərbaycanın regional və qlobal miqyasda artan rolunu bir daha nümayiş etdirdi. Ölkəmizin strateji inkişaf hədəfləri, nəqliyyat və enerji sektorunda genişlənən imkanlar, yaşıl texnologiyalara keçid və beynəlxalq əməkdaşlıq siyasəti Azərbaycanı regionun aparıcı dövlətlərindən birinə çevirir.

## Prezident Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb



Sərəncamda qeyd edilir ki, 2025-ci ildə Azərbaycanın görkəmli rəssamı, Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvaninin anadan olmasının 200 ili tamam olur.

Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. O, bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırmış, Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Rəssamın zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompozisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır.

Azərbaycan incəsənətinin inkişafına töhfələr vermiş görkəmli rəssam Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə tədbirlər planı hazırlanıb həyata keçirilsin.

## İlham Əliyev Əhməd əl-Şaraanı təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Suriyanın keçid dövrü Prezidenti Əhməd əl-Şaraaya təbrik məktubu göndərib. Məktubda deyilir: Suriya Ərəb Respublikasının keçid dövrü Prezidentinin vəzifəsinin icrasına başlamağınız münasibətilə Sizi təbrik edir, xalqınızın rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram. Biz Azərbaycan ilə Suriya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə böyük önəm veririk. Azərbaycan ölkənizin bu mühüm keçid dövründə lazımi dəstək və yardım göstərməyə hazırdır. Bu gün Azərbaycan-Suriya münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi və əməkdaşlığımızın yeni məzmunla zənginləşdirilməsi üçün yaxşı imkanlar yaranmışdır. Bu xüsusda, fürsətdən istifadə edərək Sizi Azərbaycana səfərə dəvət edirəm. Sizə ən xoş arzularımı çatdırır, dost Suriya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

## Prezident hərbi xidmətlə bağlı Sərəncam imzalayıb

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb. Sənədə əsasən, 2007-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995-2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları isə 2025-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılırlar.

# Böyük coğrafiyada böyük iqtisadi güc

## Türk dünyasının ticarət və investisiya imkanları artır

XXI əsrin türk əsri kimi səciyyələndirilməsi özünü doğruldur. Hazırda dünyanın bu və ya digər bölgəsində kəskin ziddiyyətlər yaşandığı halda, geniş əraziləri əhatə edən türk coğrafiyasında güclü intibah və inteqrasiya prosesinin şahidi oluruq.

Öz növbəsində türk dünyasının bütün türkdilli xalqları əsas ailəsi sayan Azərbaycan soy-kök, tarixi ənənələr və milli-mənəvi dəyərlər baxımından bir-birinə çox yaxın olan ölkələr və xalqlar arasında inteqrasiyanın dərinləşməsinə davamlı töhfələr verir. İndiyədək respublikamızda Türk Dövlətləri Təşkilatının (TDT) bir sıra mühüm tədbirləri uğurla baş tutub. Bakıda "Türk İnvestisiya Fondu və Türk Ticarət və Sənaye Palataları Birliyi (TCCI): Biznes Liderləri üçün Məlumatlandırma Görüşü və B2B" tədbirinin baş tutması da Azərbaycanın türk birliyinin möhkəmlənməsinə göstərdiyi son dərəcə həssas yanaşmasının daha bir ifadəsidir. Tədbirdə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlıq və investisiya imkanları ilə bağlı aktual müzakirələr aparılıb, bir sıra önəmli təkliflər səsləndirilib.

### 5 əsas istiqamət üzrə inkişaf perspektivləri

Dünyanın inkişaf perspektivlərində türk birliyinin yeri və rolu aydın görünür. Türk dünyası böyük coğrafiya, böyük mədəniyyət, artan əhali deməkdir. Burada, eyni zamanda, güclü iqtisadi potensial cəmləşib. Bakının ev sahibliyi etdiyi tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev bu barədə müfəssəl məlumatları təqdim edib. TDT-nin Baş katibi xatırladıb ki, türk dünyası 107 milyon nəfər əhalisi və 4,5 milyon kvadratkilometr ərazisi ilə geniş ticarət və investisiya imkanları yaradır. Türk dövlətlərinin ümumi ÜDM-i 4,3 trilyon ABŞ dollarından çoxdur və region dünya üzrə üçüncü ən böyük enerji təminatçısıdır. Baş katib türk dünyasının iş adamlarını bölgədə həyata keçiriləcək layihələrə investisiya qoymağa çağırıb: "Türk Dövlətləri Təşkilatı üzvləri arasında ticarətin həcmi hazırda ümumi ixracın cəmi 7 faizini təşkil edir və bu göstəricinin artırılması üçün daha çox investisiya cəlb edilməlidir".




İndiki geosiyasi reallıqlar fonunda türkdilli ölkələrin coğrafi yerləşməsi tranzit daşımaları üçün optimal nəqliyyat-logistika imkanlarının təqdim edilməsi baxımından müstəsna önəm daşıyır. Bu gün türkdilli dövlətləri birləşdirən Orta Dəhliz Şərq və Qərb arasında əsas ticarət marşrutu qismində çıxış edir. Bu dəhliz, Şimal Dəhlizindən 2 000 kilometr daha qısadır və yükləri Çindən Avropaya dəniz nəqliyyatına nisbətən üç dəfə tez çatdırır. K. Ömüraliyev Çin-Qırğızıstan-Özbəkistan Dəmir Yolu layihəsinin Orta Şərq və Avropa bazarlarına məsafəni 900 kilometr qısaldacağını və illik yükdaşıma qabiliyyətini 12-15 milyon tona çatdıracağını vurğulayıb.

Onun sözlərinə görə, TDT-nin 11-ci Zirvə Toplantısında Rəqəmsal İqtisadiyyat Tərəfdaşlığı Sazişi (DEPA) imzalanıb və hazırda ratifikasiya prosesindədir. Fikirlərinə davam edən Baş katib vurğulayıb: "Bu saziş, TDT üzvləri arasında rəqəmsal əməliyyatlara etimadı artıracaq. Xidmətlər və investisiyalar sahəsində azad ticarət sazişinin yekunlaşdırılması da əsas prioritetlərdəndir. Bu addım üzv ölkələr arasında ticarət dövriyyəsini və investisiya imkanlarını artıracaq".

Tədbirdə Türk İnvestisiya Fondunun prezidenti Bağdat Amreyevin bildirdiyi kimi, türk dünyasında iqtisadi əməkdaşlıq 5 əsas istiqamətdə inkişaf edir. Bunlar aşağıdakılardır:

-Tticarət və investisiya üçün maneələrin aradan qaldırılması,

-Nəqliyyat və enerji bağlantılarının gücləndirilməsi,

-Regional təchizat zəncirlərinin genişləndirilməsi,

-İnnovasiya və rəqəmsal transformasiyanın təşviqi,

-Maliyyə əməkdaşlığının gücləndirilməsi və birgə maliyyələşdirmə mexanizmlərinin inkişafı.

2024-cü ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin istehsal etdiyi ümumi daxili məhsulun məcmu dəyəri 900 milyard ABŞ dollarından çox olub ki, bu da qlobal ÜDM-in 1,7 faizi deməkdir. Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, eyni zamanda Türk Ticarət və Sənaye Palataları Birliyinin prezidenti Məmməd Musayevin sözlərinə görə, ötən il türk dövlətlərinin ümumi iqtisadi artımı 6 faiz olub ki, bu da qlobal iqtisadi artımı (Dünya Bankı bu göstəricinin 2,7 faiz olduğunu ehtimal edir) təxminən 2 dəfə üstələyib: "Bu rəqəmlər türk dövlətlərinin davamlı gücləndiyini əyani surətdə sübut edir", - deyə M.Musayev bildirib.

### İqtisadi inteqrasiya yolunda mühüm addım

Türk İnvestisiya Fondunun əsas məqsədi türk dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişafına töhfə verməkdir. Xatırladaq ki, "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Saziş 2023-cü il martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Fövqəladə Zirvə görüşü çərçivəsində imzalanıb. Azərbaycan Prezidentinin 30 may 2023-cü il tarixində imzaladığı qanunla sözügedən Saziş təsdiq edilib. Fond 2024-cü ildən tam fəaliyyətə başlayıb. Türk İnvestisiya Fondunun Rəhbərlər Şurasında Azərbaycanı iqtisadiyyat naziri Mikayıl Cabbarov təmsil edir. TİF-nin nizamnamə kapitalı 100 milyon ABŞ dolları və yaxud 20 faiz artırılaraq 500 milyon ABŞ dollarından 600 milyon ABŞ dollarına çatdırılıb. Artım Macarıstanın Fonda qoşulması nəticəsində baş verib.

M.Musayev vurğulayıb ki, Türk Dövlətləri Təşkilatının çətiri altında fəaliyyət göstərən Türk Ticarət və Sənaye Palataları Birliyi və Türk İnvestisiya Fondu türk dövlətlərinin iqtisadi inteqrasiyası yolunda mühüm addımlardır.

Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) KOB-ların maliyyələşdirilməsi ilə bağlı təklifləri də nəzərə alınıb. Bu barədə tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib.

Onun sözlərinə görə, KOB-larla bağlı layihələrin maliyyələşdirməsi onların inkişafına dəstək olmaqla yanaşı, Fondun məqsədlərinə də töhfə verə bilər: "Fond KOB-larla bağlı layihələri maliyyələşdirməyi hədəfləyir. Bu istiqamətdə yerli sahibkarlara Fondun investisiyalarının cəlb edilməsini asanlaşdırmaq üçün birgə KOB maliyyələşdirmə proqramının yaradılması nəzərdən keçirilə bilər".

O. Məmmədov bildirib ki, TİF nəqliyyat və logistika zəncirinin genişləndirilməsini də dəstəkləyindən, KOB-ların regional təchizat zəncirinə inteqrasiyasını təşviq etmək məqsədilə KOB İxrac Akseleratorunun yaradılmasına dəstək verilə bilər. O hesab edir ki, ilkin mərhələdə bu platformanın rəqəmsal formatda fəaliyyət göstərməsi planlaşdırıla bilər.

"Yaşıl maliyyələşdirmə"yə toxunan KOBİA sədri vurğulayıb ki, COP29 çərçi-

### Yerli iş adamları üçün yaranan fürsətlər

vəsində elan edilmiş "KOB-ların Yaşıl Keçidi üzrə Bakı İqlim Koalisiyası" çərçivəsində KOB-ların "yaşıl maliyyələşdirilmə"si mexanizmlərinin yaradılması və iqlim yönümlü layihələrin dəstəklənməsi istiqamətində əməkdaşlıq imkanları mövcuddur. "KOBİA ESG prinsiplərinin tətbiqini fəal şəkildə dəstəkləyir və bu məqsədlə ESGHUB platforması yaradılıb", - deyə O. Məmmədov vurğulayıb.

*Mübariz FEYZİLİ*

# Tahir Budaqov Qırğız Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb



Fevralın 14-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanov arasında görüş keçirilib.Görüşdə Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, bu əlaqələrin inkişafında hər iki dövlət başçısının fəaliyyətləri xüsusi vurğulanmış, 8 noyabr 2021-ci il tarixində - Azərbaycanın 44 günlük müharibədə qələbəsinin ildönümü münasibətilə Qırğız Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təbrik bəyanatının verildiyi qeyd edilmişdir. Bütün istiqamətlərdə olduğu kimi statistika sahəsində də əməkdaşlığın vacibliyinə toxunularaq statistikanın bir sıra sahələri üzrə Dövlət Statistika Komitəsinin təcrübəsinin öyrənilməsi məqsədilə 2023-cü ildə Qırğız Respublikası Milli Statistika Komitəsinin bir qrup nümayəndəsinin Bakıda təlim səfərində olduğu xatırlanmış, təlim müddətində iştirakçılara Azərbaycanın milli statistika sistemi, rəsmi statistikanın istehsalında inzibati məlumatlar və Big Data-dan istifadə, keyfiyyətin idarə edilməsi və keyfiyyətə nəzarət cədvəllərinin statistikada tətbiqi, statistik məlumatların toplanması və emalı prosesində informasiya texnologiyalarından istifadə, statistik məlumatların yayılması və ictimaiyyətlə əlaqə işlərinin təşkili, Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin fəaliyyət istiqamətləri, seçmə statistik müayinələrin təşkili, rəsmi statistikada innovativ metodların tətbiqi və təlim məsələləri, “Statistika xəbərləri” elmi-praktik jurnalı barədə təqdimatlar keçirildiyi məmnunluqla qeyd edilmişdir.



Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanov səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirmiş, iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun imzalanmasının məqsədəuyğunluğunu vurğulamışdır.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli statistika sistemi müasir çağırışlara uyğun inkişaf etdirilir

## Dövlət Statistika Komitəsində 2024-cü ilin yekunlarına və 2025-ci ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib




Dövlət statistika orqanlarının 2024-cü ildəki fəaliyyəti və 2025-ci ildə qarşıda duran vəzifələrlə bağlı fevralın 14-də Dövlət Statistika Komitəsi aparatı şöbələrinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, şəhər və rayon statistika idarələrinin rəhbərlərinin iştirakı ilə geniş kollegiya iclası keçirilib.

Kollegiyanın sədri Tahir Budaqov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə 2024-cü ildə bütün sahələrdə sistemli və ardıcıl xarakterli islahatların həyata keçirildiyini, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirildiyini, ölkəmizin dünyada nüfuzunun daha da artdığını diqqətə çatdırıb.

Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Komitə tərəfindən həyata keçirilən islahatlar və qurumun 2024-cü ildəki fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi 2024-cü ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuşdur. Bununla yanaşı, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyadan, “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”ndan, “2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn vəzifələrin icrası, eləcə də dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə Komitə tərəfindən zəruri işlər görülmüş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində milli statistika sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsi, inzibati məlumatlardan istifadəni genişləndirməklə ölkənin dayanıqlı inkişafı ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsi və bu hədəflərə çatmaq üçün statistika sahəsində maddi-texniki bazanın və kadr potensialının möhkəmləndirilməsi istiqamətində kompleks tədbirlər davam etdirilmişdir.

Rəsmi statistik hesabatların elektron qəbulu səviyyəsinin artırılması məqsədilə görülmüş tədbirlər nəticəsində “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidməti vasitəsilə hesabat formalarını elektron şəkildə təqdim edən hüquqi və fiziki şəxslərin xüsusi çəkisi 97,0 faizi ötmüşdür.

UNICEF-lə əməkdaşlıq çərçivəsində ölkəmizdə həyata keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu (MICS) üzrə işlər başa çatdırılmış və onun nəticələrinə dair hesabat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 526s nömrəli Sərəncamı ilə yaradılmış İstiqamətləndirici Komitənin 2024-cü il 4 sentyabr tarixli qərarı ilə təsdiq olunmuş, nəşr edilərək istifadəçilərə çatdırılmış, elektron variantı Dövlət Statistika Komitəsinin və UNICEF-in rəsmi internet səhifələrində yerləşdirilmişdir.



“2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 04 oktyabr tarixli, 357 nömrəli Qərarının icrası olaraq, 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunun 3 inzibati ərazi dairəsi üzrə ümumilikdə 1942 təsərrüfatda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndəsinin iştirakı ilə siyahıyaalma heyəti üçün təlim təşkil olunmuş, siyahıyaalma zamanı ilk dəfə CAPI (Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların planşet tipli kompüterlərə (planşetlərə) daxil edilməsi üçün hazırlanmış xüsusi proqram təminatları və siyahıyaalma vərəqəsi uğurla sınaqdan keçirilmiş, sayıcılar tərəfindən məlumatlar planşetlər vasitəsilə toplanmış və məlumat bazasına ötürülmüşdür.

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilmiş, müvafiq dövlət qurumları ilə birgə əlavə olaraq 19 yeni göstərici üzrə məlumatların hazırlanmasına nail olunmuş və bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 140-a çatdırılmışdır ki, onlardan da 109-u milli prioritet kimi müəyyən edilmiş göstəricilərdir. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 Dayanıqlı İnkişaf Məqsədinə minatəmizləmə fəaliyyəti ilə bağlı 18-ci Məqsədin əlavə edilməsi təşəbbüsü ilə 2024-cü ildə ilk dəfə olaraq milli 18-ci DİM (“Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər”) göstəriciləri üzrə məlumatların toplanılmasına başlanmış və 14 göstərici üzrə məlumat istehsalı təmin edilmişdir.

Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. 2024-cü ildə internet səhifəsinə 91,3 faizi ölkə ərazisindən, 8,7 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 10,4 min istifadəçi daxil olmuşdur.

Müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap edilmiş, 52 təhlili məruzə və 125 mətbu məlumat hazırlanmışdır. Statistik məcmuə və bülletenlərin elektron versiyaları Komitənin veb-səhifəsində yerləşdirilmişdir. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 264 təhlili məruzə hazırlanmışdır.

MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ilin 5 dekabr tarixində keçirilmiş 71-ci iclasında qəbul edilmiş qərara əsasən, 2025-ci ildə sözügedən Şuraya rəhbərlik Azərbaycana keçmişdir.

Komitənin 87 əməkdaşı müxtəlif beynəlxalq təşkilat və xarici ölkələrin milli statistika qurumları tərəfindən təşkil edilmiş 63 onlayn tədbirdə, 60 əməkdaşı isə əyani formada keçirilən 64 tədbirdə iştirak etmiş, həmçinin Komitənin mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər.

Sonda kollegiya iclasına yekun vuran Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin “Dövlət Nəzarəti İnformasiya Sistemi” vasitəsilə 2023-cü ilin yekunları üzrə qiymətləndirilməsinin nəticələrinə görə Komitənin mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşdığını diqqətə çatdıraraq qarşıda duran vəzifələrin bundan sonra da vaxtında və keyfiyyətlə icrası üçün qurumun müvafiq strukturlarına konkret tapşırıqlar vermişdir.

# Azərbaycan İƏT-ə sədrlik edəcək

Azərbaycan 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik edəcək. Sədrlik ölkəmizə 2026-cı ildə Azərbaycanda keçiriləcək İƏT-in 16-cı İslam Sammiti çərçivəsində ötürüləcək.
Xatırladaq ki, 2024-cü il mayın 4-də Qambiya Respublikasında İslam Əməkdaşlıq Təşkilatının 15-ci İslam Sammitində 2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsi təsdiqlənib.

## Yüksələn xətlə inkişaf edən Azərbaycan-İƏT münasibətləri



Müstəqil Azərbaycan İslam dünyasının ayrılmaz bir hissəsidir. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə sanballı töhfələr verən ölkəmiz eyni zamanda bu coğrafiyada yerləşən dövlətləri birləşdirən beynəlxalq təsisatlarda fəal şəkildə təmsil olunur. Belə təşkilatlardan biri də İslam Əməkdaşlıq Təşkilatıdır (İƏT). Ölkəmizin qurumda təmsilçiliyindən məmnunluğunu bildirən Prezident İlham Əliyev "Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ailəsinin fəal üzvüdür və həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində üzv dövlətlərlə sıx əməkdaşlıq edir", - deyə vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatı 1969-cu ildə müsəlman ölkələri arasında həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi, İslam dəyərlərinin və irsinin qorunması məqsədilə təsis edilib. Qurum 2011-ci ilədək İslam Konfransı Təşkilatı adlandırılıb. Baş qərargahı Səudiyyə Ərəbistanın Ciddə şəhərində yerləşən qurumun hazırda 60-dək üzvü var. Təşkilat BMT yanında müşahidəçi statusa malikdir. İƏT-in fəaliyyət istiqamətləri üzrə siyasi qərarlar üç ildən bir keçirilən İslam Zirvə görüşündə verilir. Hər il keçirilən İslam ölkələri Xarici İşlər nazirlərinin konfranslarında Zirvə görüşündə qəbul edilmiş qərarların icrası nəzərdən keçirilir. Təşkilatın icraedici orqanı Baş Katiblikdir. Respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət ünvanlayıb və 1991-ci il dekabrın 8-də qurumun Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilib.

Ötən dövrdə Azərbaycanın müsəlman dünyasında böyük nüfuza malik dövlətə çevrilməsi ölkəmizin apardığı siyasətin məntiqi nəticəsidir. Biz dini kimliyimizlə, İslam aləminə məxsus olmağımızla qürur duyuruq. Azərbaycan, eyni zamanda, İslam ölkələri arasında həmrəyliyin möhkəmlənməsinə sanballı töhfələr verir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2017-ci il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunub. Ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi İslam aləminə və bütün dünyamıza əmin-amanlıq, həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. İndiyədək İƏT-in bir sıra tədbirləri Azərbaycanda uğurla baş tutub.

Öz növbəsində, İƏT də Azərbaycanın beynəlxalq səviyyədə İslam və digər sivilizasiyalar arasında əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfələri yüksək dəyərləndirir. Qurum Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini həmişə birmənalı şəkildə pisləyib. İƏT ötən dövr ərzində Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən 80-dən artıq qətnamə qəbul edib. 2016-cı ildə Təmas Qrupunun təsis edilməsi İƏT-in Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə necə böyük önəm verdiyini əyani şəkildə təsdiqləyir.

Dünyada nüfuzu getdikcə artan İƏT Azərbaycana növbəti birmənalı dəstəyini 44 günlük Vətən müharibəsində göstərdi. Prezident İlham Əliyev Azərbaycan dövlətinin və xalqının dost ölkələrin dəstəyini minnətdarlıq hissi ilə dəyərləndirdiyini nəzərə çatdıraraq vurğulayıb: "Biz müharibə zamanı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən nümayiş etdirilən qətiyyətli mövqeyi yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış edib".

## Humanitar-mədəni sahədə əməkdaşlıq

Azərbaycanın İƏT, eləcə də quruma üzv olan dövlətlərlə humanitar-mədəni sahədə əməkdaşlıq əlaqələri də getdikcə genişlənir. Azərbaycan 1991-ci ildən İslam ölkələrinin təhsil, elm və mədəniyyət təşkilatı olan və sıralarında 50-dən çox dövləti birləşdirən ICESCO-nun üzvüdür. 1991-ci ildə qurulmuş sıx münasibətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəlib. Mehriban Əliyeva - təşkilatın bu yüksək adına layiq görülmüş ilk qadın ictimai xadimdir.

Bu gün Azərbaycanın ICESCO ilə münasibətləri İslam dünyasına gözəl bir nümunədir. Bunun nəticəsidir ki, təşkilatın bir sıra mühüm tədbirləri məhz Bakıda keçirilib. Hər bir azərbaycanlı üçün çox əziz şəhər olan Şuşa 2024-cü ildə zəngin İslam mədəniyyətinin qovuşduğu bir məkan kimi diqqət mərkəzində qalıb. Ötən ilin may ayında şəhərin Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı tədbiri xüsusilə rövnəqləndirib. Festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıblar.



Yeri gəmişkən, birinci dəfə deyil ki, Azərbaycan şəhəri İslam dünyasının mədəniyyət paytaxtı adını qazanıb. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərləri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilib. Həmçinin ICESCO Azərbaycanın uğurlarının beynəlxalq miqyasda təbliğinə xüsusi önəm verir.

Bu günlərdə təhsil və sosial müdafiə sahəsində irimiqyaslı layihələri ilə tanınan Heydər Əliyev Fondunun ICESCO və Həmdan bin Rəşid Al Məktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer aldığı barədə məlumat vermişdik. Bəhs olunan mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Bu il yeddi ölkədən doqquz təhsil təşəbbüsü birincilik uğrunda mübarizə aparıb. Heydər Əliyev Fondunun qeyd olunan istiqamətlərdə fəaliyyəti həqiqətən çox geniş əhatə dairəsinə malikdir.

***MÜBARİZ***

# Rəqabət mühitinin qorunması mühüm vəzifədir

## Yeni Dövlət Agentliyi bu sektorda meydana çıxan yeniliklərin çevik və operativ həllinə imkan yaradır

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" müvafiq fərmana əsasən, yeni qurumun Əsasnaməsi təsdiqlənib. Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirəcək.

## Biznes mühitinin əlverişliliyi üçün...

Ölkəmizdə yeni iqtisadi mühitdə rəqabətə dəstək verilməsi, rəqabət mühitinin qorunması antiinhisar orqanı qarşısında duran mühüm vəzifələrdəndir. Məhz bu baxımdan Agentlik ölkədə həyata keçirilən müasir iqtisadi islahatların və yeni çağırışlar əsasında daha da güclənən biznes-dövlət münasibətlərinin yaxın partnyorluq çərçivəsində inkişafını təmin edəcək.



Eyni zamanda, Agentliyin Əsasnaməsində müəyyən edilmiş prioritetlər biznes mühitinin əlverişliliyinin artırılması və azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Antiinhisar fəaliyyətinin təkmilləşdirilməsi, bazar iştirakçılarının hüquq və mənafelərinin daha müasir formatda qorunması, eləcə də rəqabət sektorunda meydana çıxan yeniliklərin çevik və operativ həllinə imkan yaradır.

Ümumilikdə, Xidmətdən Agentliyə çevrilən bu strukturun təsis olunması ölkədə biznes mühitinin əlverişliliyinin artırılması və azad sahibkarlığın təşviqi baxımından yeni islahatların ahənginə tam uyğundur. İslahatların tərkib hissəsi kimi 2024-cü il iyulun 1-dən qüvvəyə minən Rəqabət Məcəlləsindən irəli gələn yeni vəzifələri qeyd etmək mümkündür. Belə ki, məcəllədə bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti, eləcə də bu sahədə rəqabət orqanının səlahiyyətləri ilə bağlı müddəalar öz əksini tapıb ki, bu da müasir çağırışlara uyğun fəaliyyətin təmin edilməsini nəzərdə tutur.



Yeni meyarlar və çağırışlar isə dövlərin funksiyalarının icrası və tənzimləmə səlahiyyətlərinin daha da işləkliyini, çevikliyini tələb edir. Xüsusilə də ölkəmizdə azad və sağlam rəqabət mühitinin təmin edilməsi və inkişafına şəraitin yaradılması, bazarlarda rəqabətin pozulması hallarının qarşısının alınması, eləcə də bu istiqamətdə nəzarət tədbirlərinin həyata keçirilməsi üçün daha çevik və funksional dövlət orqanının fəaliyyəti labüddür. Bu baxımdan Dövlət Agentliyi həmin sahədə idarətmənin və dövlət nəzarətinin təkmilləşdirilməsi, eləcə də optimallaşdırılması baxımından mühüm rol oynayacaq. Agentlik tənzimləyici orqan kimi daha effektiv qərarların qəbul edilməsi, təkmil bazar monitorinqi və araşdırma aparmasını təmin etməklə, ölkədə sağlam rəqabətin və rəqabət mədəniyyətinin təşviqinə xidmət edəcək.

## İstehlakçıların hüquqları daha etibarlı qorunacaq



Dövlət Agentliyi, səlahiyyətləri çərçivəsində istehlakçı hüquqlarının müdafiəsi istiqamətində də təsirli addımlar atacaq, istehlakçı müraciətlərini daha təfərrüatlı araşdıraraq zəruri tədbirlər görəcək, o cümlədən istehlakçıların lazımi keyfiyyətli mal, xidmət əldə etmək hüququnu qoruyacaq, qüsurlu və ya saxtalaşdırma halı aşkar edilən malların dəyişdirilməsi, qaytarılması ilə bağlı tələb irəli sürmək imkanlarının müdafiəçisinə çevriləcək. Mülki Məcəllənin, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun müvafiq maddələrinə, eləcə də "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərarına uyğun olaraq istehlakçılara dəyən zərərlərin ödənilməsi istiqamətində inzibati tədbirlər görəcək.

Agentlik, həmçinin dövlət satınalmaları sahəsində də çevik və operativ idarətmə sistemini quraraq bu sahədə optimallaşma tədbirlərini həyata keçirəcək, elektron satınalma üzrə şəffaflıq imkanlarını təmin edəcək, eləcə də sahibkarlıq subyektlərinin satınalmalarda iştirakını stimullaşdıracaq.

## Rəqabəti pozanlara qarşı sərt tədbirlər görüləcək

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi istehlak bazarında nəzarət tədbirləri çərçivəsində rəqabəti pozan subyektlərə və təbii inhisarlara qarşı ən sərt tədbirlər görmək səlahiyyətlərinə də malik olacaq. Təbii inhisar subyekti olan bir sıra müəssisələrin sahibkarlarla münasibətlərinin düzgün qurulması və qanunvericilik səviyyəsində həyata keçirilməsi xüsusi diqqətdə saxlanılacaq, eləcə də qanunvericiliklə uyğunlaşmayan hansısa tələblər qoyulduğu təqdirdə, həmin tələblərin aradan qaldırılması, yaxud daxili normativ sənədlərin mövcud qanunvericilik aktlarının müddəalarına uyğunlaşdırılması məsələsi qaldırılacaq. Həmçinin, sahibkarlıq subyektləri də öz fəaliyyətlərində qarşılaşdıqları rəqabəti pozan, yaxud rəqabətə uyğun gəlməyən, onların fəaliyyətinə hansısa maneə yaradan hərəkətlərlə rastlaşdıqda, eləcə də təbii inhisarlar tərəfindən fəaliyyətinə hər hansı bir maneçilik yaradıldıqda Dövlət Agentliyi onların mənafeyini qoruyacaq. Həmçinin, rəqabəti pozan hansısa bazar iştirakçısı müəyyən edildikdə də təbii inhisar subyektləri də daxil olmaqla, onlara qarşı müvafiq tədbirlər görüləcək.

Beləliklə, Dövlət Agentliyi müasir fəaliyyət meyarları və prinsiplərinə əsaslanaraq ölkədə azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini təmin edəcək, biznes və rəqabət sektorunda çalışan bazar iştirakçıları üçün məsuliyyətli fəaliyyət mühiti yaradacaq.

***E. CƏFƏRLİ***

Milli Məclisin iclasında...

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib

Fevralın 14-də Milli Məclisin növbəti iclası keçirilib. Əvvəlcə spiker Sahibə Qafarova iclasın gündəliyi barədə məlumat verib. Gündəliyə 15 məsələ daxil edilib.

İlk olaraq "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2024-cü ildə fəaliyyəti haqqında məruzəsi" dinlənilib. Məruzəni ədliyyə nazirinin müavini Toğrul Hüseynov təqdim edib. O, 2024-cü ildə Ədliyyə Nazirliyində bələdiyyələrə inzibati nəzarəti həyata keçirmək və onların fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə görülən işlər barədə məlumat verib. Nazir müavini bələdiyyələrin fəaliyyəti ilə bağlı metodoloji iş və maarifləndirmə, maliyyə idarəçiliyində şəffaflığı artırmaq üçün qanunvericilikdə edilən dəyişikliklər, bələdiyyə torpaqlarından qanunauyğun və səmərəli istifadə olunması və digər istiqamətlərdə görülən işləri diqqətə çatdırıb. Bildirilib ki, 2024-cü ildə hüquq ekspertizasından keçən 102 min 831 bələdiyyə aktının 97 faizi qanunvericiliyə uyğun olub. Nazir müavini, ümumilikdə, 2024-cü il ərzində həyata keçirilən tədbirlərin ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin artırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və digər aktual məsələlərə həsr olunduğunu söyləyib.

Məruzədə qeyd olunub ki, bələdiyyələrin fəaliyyətində rast gəlinən nöqsanlar bələdiyyə torpaqlarının idarə edilməsi, maliyyə vəsaitlərindən istifadə, şəffaflıq və hesabatlılığın təmini, bələdiyyə idarəçiliyi və digər məsələləri əhatə edir. Təhlillərin nəticələrinə əsasən yerli özünüidarəetmə fəaliyyətində yol verilən nöqsanlar bələdiyyənin adından başqalarına hüquq verən saxta sənədlərin hazırlanması, bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin saxta sənədlər əsasında satılması, bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə əmlakı barəsində təkbaşına qərar verilməsi faktlarıdır. Bundan başqa, nöqsanlar arasında bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə torpaqlarının istifadəsi və mühafizəsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməməsi, bələdiyyə əmlakının mənimsənilməsi və ya israf edilməsi, bələdiyyə mülkiyyətində olan torpaq sahələri fərdi yaşayış evinin tikintisi üçün bilavasitə satıldıqda qiymətinin, habelə hərraca və ya müsabiqəyə çıxarılan torpaqların ilkin qiymətinin bazar qiymətini nəzərə alınmadan real dəyərindən daha aşağı müəyyən edilməsi, bələdiyyənin vəzifəli şəxslərinin səhlənkarlığı nəticəsində yerli vergi və ödənişlərin, o cümlədən icarə haqlarının toplanması işi aşağı səviyyədə təşkil edilməklə bələdiyyənin maliyyə vəziyyətinin əsaslı şəkildə pisləşməsi var.



Məruzədə bildirilib ki, 2024-cü il ərzində İnzibati Xətalar Məcəlləsinin 549-cu (bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın fəaliyyətinə mane olma) maddəsi ilə 103 inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib. Həmin protokollar əsasında 77 bələdiyyənin vəzifəli şəxsi məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb edilib, 15 inzibati xəta protokoluna xitam verilib və 11-i isə hazırda məhkəmələrin icraatındadır. Bələdiyyələrlə onların fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan arasında elektron sənəd dövriyyəsi təşkil edildikdən sonra bələdiyyə aktlarının vaxtında təqdim edilməməsi hallarının, habelə bununla bağlı bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalıb.

Bundan başqa, ötən il 9 min 720 hektar torpaq sahəsinin ayrılmasına dair bələdiyyələr tərəfindən verilən aktlar qanunsuz hesab edildiyindən ləğv olunub. Məruzəyə əsasən, bu, 9 min 686 hektar torpaq sahəsinin icarəyə, 34 hektar torpaq sahəsinin isə mülkiyyətə verilməsi haqqında qərarlar olub. Sənəddə bildirilib ki, il ərzində örüş sahələrinin qanunsuz olaraq ayrı-ayrı şəxslərə ayrılması, zəbt olunması və digər pozuntulara qarşı qanuna müvafiq tədbirlər davam etdirilib, nəticədə 3 min 376 hektar örüş sahəsi ilə bağlı qanunsuz bələdiyyə aktları inzibati nəzarət orqanının təklifləri və ya məhkəmələrə verilmiş iddialar əsasında ləğv olunub, ya da dəyişdirilib.

Eyni zamanda, "Elektron icra" informasiya sistemi vasitəsilə əldə edilmiş məlumata əsasən 2024-cü il ərzində debitor borcların ödənilməsi ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş 11 min 290 inzibati akt (2023-cü il ərzində 5 min 585) icra məmurları tərəfindən icraata qəbul olunub və icraatda qalıqla birgə 16 min 785 inzibati akt olub. Onlardan 6 min 669 aktın (2023-cü il ərzində 7 min 523) icrası təmin edilib.




Müzakirələr zamanı çıxış edən millət vəkilləri ötən il yerli özünüidarəetmədə baş verən dəyişikliklərdən, son bələdiyyə seçkilərindən söz açıb, bələdiyyənin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin əsas aspektlərindən danışıblar. Qeyd edilib ki, Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2024-cü il üzrə məruzəsi dolğun və ətraflı hazırlanıb. Məruzədə həm bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində həyata keçirilən məqsədyönlü işlər və digər əhəmiyyətli tədbirlər geniş şəkildə əks olunub. Deputatlar, həmçinin bu sahədə mövcud problemlərin həlli ilə bağlı fikir və təkliflərini də səsləndiriblər.

Müzakirələrdən sonra illik məruzə qəbul olunub.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna təklif edilən dəyişikliklərdə isə bu kateqoriyadan olan uşaqların təhsil üzrə təminatları dəyişir. Qüvvədə olan qanuna əsasən, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə və orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirdikləri zaman müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada mövsümi paltar və ayaqqabı, habelə respublika üzrə orta əmək haqqının iki mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunurlar.

Amma nəzərdə tutulan dəyişikliklərə əsasən, təminat müəyyənləşdirilən məbləğdə birdəfəlik müavinət formasında olacaq. Başqa sözlə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman onlara müvafiq təhsil müəssisəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə birdəfəlik müavinət ödəniləcək.

İclasda gündəlikdə olan digər qanunlar da müzakirə edilərək qəbul olunub.

*Nardar BAYRAMLI*

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinə yekun vurub

Mərkəzi Seçki Komissiyasının (MSK) bələdiyyə seçkilərinin ümumi yekunlarına həsr edilmiş iclası keçirilib. İclasda seçkilərin yekunları ilə bağlı yekdilliklə qərar qəbul edilib. Bələdiyyə seçkilərinin ümumi yekunlarına dair MSK-nın yekun protokolu bütün Komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənib.

# USAID-in maliyyə fırıldaqları ifşa olunur

## Xarici ölkələr üzərindən "pulsilmə" əməliyyatı...

ABŞ prezidenti Donald Trampın təşkilatının USAID (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) ətrafında başlatdığı proses dünya siyasi gündəminin əsas müzakirə predmetlərindən biri olmaqda qalır. Qeyd edək ki, formal olaraq müstəqil dövlət agentliyi hesab olunan, amma birbaşa ABŞ prezidenti, Dövlət katibi və Milli Təhlükəsizlik Şurasına tabe olan USAID-in layihələri dayandırılıb, saytı bağlanıb, ofisində işlər saxlanılıb. USAID-in qlobal məkanda maliyyələşdirdiyi layihələrin sayı və ayrılan pullar isə olduqca böyükdür - yalnız 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə, USAİD xətti ilə 335 milyard dollar xərclənib.

### ABŞ heç kimin işinə qarışmayacaq...

Proses artıq yeni istiqamət qazanıb. Bunu yeni hökmətin aparıcı simaları da təsdiqləyir. "Associated Press" (AP) xəbər verir ki, amerikalı milyarder və Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən Hökumətlərin Ümumdünya Sammitində bildirib ki, ABŞ başqa ölkələrin işlərinə qarışmağı dayandırmalı və öz daxili məsələlərini həll etməyə başlamalıdır. "Bəzən Birləşmiş Ştatlar beynəlxalq məsələlərdə müəyyən inadkarlıq nümayiş etdirir (...). Amma düşünürəm ki, hazırda biz, ümumiyyətlə, başqa ölkələri öz işləri ilə baş-başa buraxmalıyıq və Birləşmiş Ştatlar hər yerdə rejim dəyişikliyinə təkan verməkdənsə, öz problemləri ilə məşğul olmalıdır", - deyə Tramp komandasının əsas siması bildirib. Mask, həmçinin qeyd edib ki, ABŞ prezidenti Donald Trampın administrasiyası dövründə Vaşinqton "başqa ölkələrin işlərinə qarışmaqda daha az maraqlıdır". Vurğulayaq ki, Mask daha əvvəl də bəyan etmişdi ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) işi başqa şeylərlə yanaşı, seçkilərə təsir etmək məqsədi daşıyıb. O, agentliyin hansı ölkələrin seçkilərinə təsir göstərməyə çalışdığını dəqiqləşdirmədiyini vurğulamışdı.




### 10 min nəfərlik yemək, transgender operası...

Bu arada USAID-in layihələrinin dayandırılması siyasi tərəflər arasında ciddi qalmaqala yol açacaq kimi görünür. Belə ki, Konqresin bir qrup Demokrat Partiyasından olan üzvü USAID-in bloklanmasının qarşısını alan qanun layihəsi təqdim edib. Konqresin Demokrat nümayəndəsi Sara Yakobs USAID-in maliyyələşdirdiyi xarici yardımların dayandırılmasının qarşısının alınması məqsədi daşıyan 15 Demokrat üzvün dəstəklədiyi qanun layihəsi ilə bağlı yazılı açıqlama verib.

Qeyd edək ki, ABŞ hakimiyyəti USAID-in "Əl-Qaidə" təşkilatı üçün 10 min nəfərlik yemək alınması, Kolumbiyada transgender operası, Peruda transgender komiksləri, İrlandiyada LGBT myuzikl, Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklüzivliyin irəliləməsi, Qvatemalada cinsin dəyişdirilməsi və LGBT fəallığı və digər proqramları maliyyələşdirdiyinin üstünü açıb. USAID-in "Əl-Qaidə"nin gələcək lideri Ənvər Əl-Əvlakinin kollec təhsilinin maliyyələşdirməsi ilə bağlı xəbər də artıq təsdiqini tapıb.

### "Böyük miqyaslı sosial fırıldaq" üçün...

Bir müddət öncə agentliyin yardım etdiyi Amerikanın "Politico", "The New York Times" qəzetləri və "Associated Press" informasiya agentliklərinin maliyyələşməsinin dayandırıldığı elan edilmişdi. İlon Mask Britaniyanın "Reuters" xəbər agentliyinin də ABŞ hökumətindən milyonlarla dollar ödəniş aldığını iddia edib. Maskın sözlərinə görə, Britaniyanın "Reuters" xəbər agentliyi 2018-2022-ci illər arasında ABŞ hökumətindən milyonlarla dollar ödəniş alıb. İş adamı bununla bağlı "X" sosial media hesabındakı paylaşımında bildirib. Mask ABŞ hökumətinin xərclərini sənədləşdirən vebsayta əsaslanan başqa bir yazıya istinad edərək, "Reuters" agentliyinə "böyük miqyaslı sosial fırıldaq" üçün ABŞ hökuməti tərəfindən milyonlarla dollar ödənilib. Bunlar tam fırıldaqlardır" deyib.

İstinad edilən yazıda bildirilib ki, Maskın rəhbərlik etdiyi Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) araşdırmaları nəticəsində Müdafiə Nazirliyinin 2018-2022-ci illər arasında "Reuters"ə 9 milyon dollarlıq "müəmmalı ödənişlər" etdiyi üzə çıxıb.

Eləcə də Mask "X" hesabında İctimai media təşkilatı tərəfindən aparılan yeni araşdırmanın nəticələri ilə bağlı "Mərkəzi Kəşfiyyat İdarəsi (CIA) və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən idarə olunan Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabat Layihəsinin (OCCRP) 2019-cu ildə Trampın impiçmenti məsələsinin arxasında dayandığını açıqlayıb. Qeyd olunub ki, OCCRP Tramp və onun tərəfdaşlarının Rusiya bankçılığı və Rusiyanın çirkli pulların yuyulması fəaliyyətləri ilə əlaqəsi olması barədə səssiz fikirlərin təbliğində "əhəmiyyətli rol oynayıb".

Vurğulayaq ki, OCCRP dünyada əsasən şər-böhtan yaymaqla məşğul olan, böyük pullar qarşılığında fərqli maraqları təmsil edən "təşkilat" kimi tanınır. Araşdırmalar nəticəsində OCCRP-nin maliyyə fəaliyyətinin USAID ilə əlaqəli olduğu və OCCRP-nin yarandığı gündən ABŞ hökumətindən 47 milyon dollar aldığı üzə çıxıb.




### 700-dən artıq media orqanı, 300-ə yaxın QHT, 6 mindən çox jurnalist...

Qeyd edək ki, USAID-in ifşası zamanı üzə çıxan faktlar mühüm rəqəmlərlə müşayiət olunur - USAID dünya üzrə nüfuzlu mediaları maliyyələşdirib:

- "The New York Times": 2024-cü ildə 3,1 mln.dollar ayrılıb;
- "Politico" 8 mln. Dollar;
- "Associated Press" 19 mln.dollar;
- BBC 2,6 mln.funt;
- "Reuters" 9 mln.dollar;
- "Frans-Press" 447 min dollar.

Ümumilikdə, 700-dən artıq media orqanı, 300-ə yaxın media sahəsində çalışan QHT və 6 mindən çox jurnalist USAID tərəfindən imaliyyələşdirilib. Fevralın 6-dan ABŞ hökuməti bu təşkilat vasitəsilə "The New York Times", "Politico" və "Associated Press"in maliyyələşdirilməsini dayandırıb. Hesabata görə, yalnız Ukraynada medianın 90 faizi USAID tərəfindən maliyyələşdirilib - 2024-cü ildə USAID Ukraynadakı proqramlarına 6 milyard dollardan artıq vəsait xərcləyib.

### USAID Bosniya və Hersoqovinada 246 milyon 180 min dolları "itirib"...

USAID-in fəaliyyəti ilə bağlı daha bir Avropa ölkəsi öz daxilində araşdırmaya başlayacaq. Belə ki, USAID-in Bosniya və Herseqovinadakı fəaliyyəti və xərcləri araşdırılacaq. Ölkənin maliyyə və xəzinə naziri Srdan Amidziç ABŞ Beynəlxalq İnkişaf Agentliyinin ölkədəki fəaliyyəti və xərcləmələri ilə bağlı araşdırma aparılmasına göstəriş verdiyini açıqlayıb. Jurnalistlərə açıqlamasında Amidziç USAID ilə bağlı iddialardan sonra ictimaiyyəti məlumatlandırma ehtiyacı hiss etdiklərini bildirib. Amidziç ABŞ rəhbərliyinin verdiyi açıqlamadan USAID-in Bosniya və Herseqovinaya 402 milyon dollar göndərdiyini öyrəndiklərini və buna əsasən belə qərar verdiklərini bildirib: "Ancaq USAID-in Bosniya və Herseqovinada göstərdiyi xərclər cəmi 155 milyon 820 min dollar təşkil edir. Bu halda 246 milyon 180 min dolların necə olduğu, nəyə xərləndiyi və bu pulun necə idarə olunduğuna dair heç bir məlumat və ya iz yoxdur. Bundan əlavə, USAID-in açıqladığı 54 layihəyə xərclənən 155 milyon 820 min dollar vəsaitin necə və hansı məqsədlə istifadə edildiyi ilə bağlı da heç bir izahat yoxdur".

Bosniyaların pullarının hara getdiyini bilmək hüququna malik olduğunu deyən Amidziç USAID-in iş üsulunu "qəribə" adlandırıb. Digər tərəfdən, Bosniya və Herseqovinadakı iki qurumdan biri olan Serb Respublikasının prezidenti Milorad Dodik açıqlamasında USAID və ABŞ-ın Sarayevo səfirliyinin xərcləri ilə bağlı araşdırmalara başlanılacağını bildirib.

*P.İSMAYILOV*

# Gender bərabərliyi...

## Mühüm tədbirlər baş tutdu

*Yeganə BAYRAMOVA*

Bir neçə gün öncə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ötən ilin yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib. Tədbirdə çıxış edən Dövlət Komitəsinin sədri Bahar Muradova, ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətlərində mühüm işlərin görüldüyünü qeyd edib. O, həyata keçirilən tədbir və layihələr, hazırlanan təhlillər və əldə olunan nəticələrlə bağlı statistik göstəriciləri diqqətə çatdırıb.

**Son 5 ildə müraciətlərin sayı 3,3 dəfə artıb**

Məişət zorakılığının qarşısının alınması ilə bağlı görülən işlər haqqında məlumat verən B.Muradova, ötən il bu istiqamətdə Komitəyə 594 müraciətin daxil olduğunu bildirib. O, qeyd edib ki, 2020-ci illə müqayisədə son 5 ildə məişət zorakılığı ilə bağlı daxil olan müraciət sayı 3,3 dəfə artıb.

B.Muradova qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində 8 sənəd layihəsinin təsdiq edildiyini, Komitəyə müvafiq qurumlardan daxil olan 12 sənəd layihəsinə rəy və təkliflərin verildiyini, 31 fərman, dövlət proqramı, strategiya və milli fəaliyyət planının icra edildiyini, 4 müxtəlif mövzuda hesabat və təhlilin hazırlandığını vurğulayıb.

COP29 çərçivəsində "Uşaqlar, gənclər və iqlim fəaliyyəti" mövzusu üzrə keçirilən dəyirmi masadan, "İqlim Dayanıqlılığı və Sülh Quruculuğunda Gənclərin Liderliyi", "Şəffaflıqda Gender" mövzusunda yüksək səviyyəli tədbirlərdən bəhs edən sədr, ICESCO və Dövlət Komitəsi arasında əməkdaşlığa dair niyyət protokolunun imzalandığını bildirib.

**890 ailəyə səfərlər təşkil edilib**

Komitə sədri diqqətə çatdırıb ki, 2024-cü ildə Uşaq və Ailələrə Dəstək mərkəzlərinin xidmətlərindən 25354 nəfər faydalanıb, 890 ailəyə səfərlər təşkil edilib və 10 "Açıq qapı" günü keçirilib. Ötən il Komitəyə 3628 vətəndaş müraciəti daxil olub, 12 region üzrə qəbullar təşkil edilib.

B.Muradova vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığın qurulduğunu vurğulayaraq, bu əlaqələrin uğurla davam edəcəyinə əminliyini ifadə edib. O, media nümayəndələri tərəfindən daxil olan 198 müraciətin təmin edildiyini, jurnalist və blogerlərin iştirakı ilə təlim proqramlarının, media turların təşkil olunduğunu bildirib.

Daha sonra Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, dövlətin ailə, qadın və uşaq hüquqları istiqamətində siyasətinə uyğun olaraq, Naxçıvanda həyata keçirilən tədbir və layihələr barədə məlumat verib. O, ötən il ölkədə müvafiq sahədə qəbul edilmiş normativ hüquqi sənədlər, həmçinin dövlət proqramlarından irəli gələn vəzifələrin icrası istiqamətində bir sıra statistik göstəriciləri diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova isə gender məsul şəxslərin fəaliyyətinin gücləndirilməsinin və bələdiyyələrə yeni seçilmiş qadınlara istiqamətlənən təlimlərin keçirilməsinin, gender komissiyalarının fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətindən danışıb.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci ilin birinci yarısı üçün qarşıda duran vəzifələrə dair təqdimatla çıxış edən Dövlət Komitəsinin aparat rəhbəri Ceyran Rəhmətullayeva, "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Daha sonra məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun yaradılması ilə bağlı çıxış dinlənilib. Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət istiqamətləri qeyd olunub. Bildirilib ki, bu istiqamətlərə məişət zorakılığının qarşısının alınması sahəsində qurumlararası əlaqələndirmənin həyata keçirilməsi, məişət zorakılığının qarşısının alınması sahəsində monitorinqin aparılması, əhali arasında maarifləndirmə tədbirlərinin keçirilməsi və.s daxildir.

Sonra müzakirələr aparılıb və kollegiyanın gündəliyindəki məsələlər üzrə qərarlar qəbul edilib. Yekunda çıxış edən Bahar Muradova, cari ildə də yeni istiqamətlərin müəyyənləşdirilərək, mühüm tədbirlərin davam etdiriləcəyini diqqətə çatdırıb.

**Qadınlarımız elmdə nəzərəçarpacaq uğurlar əldə edirlər**

Qeyd edək ki, bu günlərdə ölkəmizdə gender bərabərliyi ilə bağlı başqa bir tədbir də baş tutub. Tədbirdə çıxış edən Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev bildirib ki, Azərbaycanda tarixən təhsilə və akademik fəaliyyətə geniş çıxışı olan qadınlar və qızlar elmdə, o cümlədən rəhbər vəzifələrdə nəzərəçarpacaq uğurlar əldə ediblər.

Onun sözlərinə görə, beynəlxalq tərəfdaşlıqlar, o cümlədən qadınlar və qızlar üçün texniki bacarıqların inkişafına yönəlmiş proqramlar da bu sahədə əsas rol oynayır: "Biz gənc qadınların və qızların elm sahəsində fəaliyyətini genişləndirmək üçün bir sıra beynəlxalq tədbirlər keçirmişik. Azərbaycanın xoşbəxtliyi ondan ibarətdir ki, elmi tədqiqatlarda qadınların rolunun yüksəldilməsinə mühüm töhfələr vermiş çox sayda görkəmli qadın alimləri var".

Qeyd edək ki, Azərbaycan qadını elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə nüfuzunu ilbəil artırır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası "Beynəlxalq Etimad Kral Elmlər Akademiyası" (RASIT) qeyri-hökumət təşkilatı tərəfindən 1 il müddətinə (sentyabr 2024 - sentyabr 2025) "Elmdə Qadın və Qızların Dünya Paytaxtı" elan edilib. Bu müddət ərzində ölkəmizdə qadın və qızların elmi-tədqiqat bacarıqlarının artırılması üçün layihələrin həyata keçirilməsi, elm sahəsində olan müxtəlif tədqiqat qrant və təqaüdləri barədə universitet tələbələrinin məlumatlandırılması və regionlarda təhsil alan qızların elm sahəsinə yönəldirilməsi üçün müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır

# "ULDUZ"UN İŞIĞI



Müsahibim "Ulduz" jurnalının baş redaktor müavini, yazıçı Təranə Vahiddir.

**- Təranə xanım , "Ulduz"da nə var, nə yox?**

- "Ulduz"da həmişə işıq var. Yaradıcı insanların, yaradıcı ruhların, ədəbiyyat deyilən nəsnənin və sözün işığı. Dünən də elə olub, bu gün də belədir, ümid edirəm sabah da belə olacaq.

**- "Ulduz" son illər bir çox uğurlu layihələrə imza atdı. Bu layihələrin əsas hədəfləri nə idi?**

- Hədəfimiz və məqsədimiz 58 il ədəbi gəncliyi ətrafında birləşdirən, ədəbi zövqün formalaşmasında danılmaz xidməti olan və ədəbiyyatımızı yetərincə təbliğ edən bir jurnalı yaşatmaqdır. Dünyanın hər yerində ədəbi jurnalları axına qarşı üzən fikir qayıqlarına bənzədirlər. Bu gün sürət əsridir, internet əsridir, sosial şəbəkələrin meydan suladığı və çox vaxt yanlış sularda üzdüyü bir vaxtda axına qarşı üzmək o qədər də asan deyil. Yarım əsrdən çox öz ənənəsi olan bir jurnalın yeni yelkənlər açıb yeni limanlar axtarması, jurnalın ilk səhifəsindən son səhifəsinə kimi zövqü, harmoniyanı qoruyub saxlaması, poliqrafiya baxımından gənclərin ruhunu oxşamaq çətin olsa da, görünən dağa nə bələdçi, işimizin öhdəsindən yetərincə gəlirik. Jurnalın baş redaktoru Qulu Ağsəs az qala hər gün yeni bir ideya ilə işə gəlir, xoşbəxtlikdən "Ulduz"da hamı istedadlıdır, axtarışdadır, yenilik sorağındadır. Bu səbəbdən "Ulduz" hər sayında yenilənir. Təəssüf ki, "Ulduz"un işığını solğun görənlər, uğuruna kölgə salıb, fədakarlığını hay-küy kimi qələmə vermək istəyənlər də var. Olsun. Belələrinə ən yaxşı cavabımız öz yolumuzla getmək, uğurlu saylarımızla oxucularımızı sevindirməkdir.

**- Deyəsən ürəyiniz doludur...**

- Əslində, çox danışmağı sevmirəm. Amma elə məqamlar var ki, o anda susmağın özü ədalətsizlikdir. "Ulduz"un büdcəsi çox deyil. O büdcə ilə "Ulduz"u "topa tutanlar" gördüyümüz işlərin onda birini görə bilməzlər. Ötən əsrin 90-cı illərində "Ulduz"un ağır sınaqlardan keçdiyini xatırlatmaq istəyirəm. Aylarla, hətta, illərlə "Ulduz"un əməkdaşları əməkhaqqı almayıblar. Amma onlar bu jurnalı yaşatdılar, imkan vermədilər ki, "Ulduz"un işığı sönsün. Onlardan biri bu gün də sıralarımızdadır. Jurnal yaranan gündən "Ulduz"da işləyən rəssam Ədalət Həsəni deyirəm. Öz aramızda onu "Dünyanın ən ədalətli adamı" adlandırırıq. Biz yolu "Ulduz"dan keçən belə fədakar insanların yolunu davam etdiririk və etdirəcəyik.

**- Bir az da layihələrdən danışaq...**

- Son on ildə hansı layihələr həyata keçirmişik bunu bilənlər bilir, görənlər görür, xüsusi buraxılışlar, müsabiqələr, klassiklərin yubileyi ilə bağlı nəşrlər, "Müəllifin ilk kitabı" seriyasından kitabçalar...və s. Bunları danışıb vaxtınızı almaq istəmirəm, əsas odur ki, günü bu gün də bütün nəsillər, xüsusilə yaşlı nəsil "Ulduz"da çap olunmaq istəyir.

**- Ötən ilin sonunda "Ulduz" jurnalı ilə "Xalq qəzeti" TV-nin xüsusi layihəsi oldu. Layihə necə qarşılandı?**

- Layihənin məqsədi gənclərlə görüş keçirmək, ədəbiyyatla gənclik arasında körpü yaratmaq, ulduza çevrilmiş şairləri, yazıçıları görüşlərə dəvət edib "Ulduz"lu görüşlər" keçirməkdir. Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Dövlət İqdisad Universitetinin nəzdində Maliyyə-İqtisad Kollecində yaddaqalan görüşlərimiz oldu. Müasir gəncliyin səsini, arzularını eşitmək, ədəbiyyat sevgisini görmək bizi ümidləndirdi ki, bu layihəni davam etdirək.

**- "Ulduz"la "Genc yürekler"in birgə layihəsi böyük əks-səda yaratdı. İstərdim, bu barədə də məlumat verəsiniz.**

- "Ulduz" bu addımı ilə jurnallar arasında daha bir ilkə imza atdı. "Genc yürekler" jurnalının bir sayı "Ulduz"da türk dilində çap olundu, "Ulduz"un bir sayı da qardaş Türkiyədə Azərbaycan dilində işıq üzü gördü. Bu bir mübadilə idi, eksperiment də adlandırmaq olar, nəticə gözlədiyimizdən də uğurlu oldu.

AYB-nin sədri, Xalq yazıçısı Anarın iştirakı ilə "Genc yürekler" dərgisinin təqdimatını keçirdik. Bu layihədən sonra Türkiyədə çap olunan daha iki jurnaldan qarşılıqlı mübadilə üçün təklif aldıq. Qısa vaxtda bunları gerçəkləşdirəcəyik.

**- "Ulduz" bu il nələri planlaşdırır?**

- Bu il 35 yaşa qədər olan gənclərin yaradıcılığı üç xüsusi buraxılışlarda - poeziya, proza və tənqiddə oxuculara təqdim edəcəyik. Yusif Səmədoğlunun 90 illik yubileyi ilə əlaqədar Yusif Səmədoğlu adına hekayə müsabiqəsi keçirəcəyik. Artıq danışıqlar aparmışıq, "Ulduz" jurnalı ilə Özbəkstanın hələ adını açıqlamaq istəmədiyimiz tanınmış ədəbi jurnalı arasında layihəmiz olacaq. Bu dəfə bizim yazıçı və şairlərin əsərləri özbək dilində Özbəkistanda, özbək qardaşlarımızın əsərləri Azərbaycan dilində "Ulduz"da çap olunacaq. Dünya Türk Gənc Yazarlar Birliyi ilə "Ulduz"un xüsusi buraxılışı olacaq ki, bu buraxılışda bütün türkdilli xalqların gəncləri təmsil olunacaq. Bu il "Genc yürekler" dərgisi bir sayını 35 yaşadək olan gənclərimizin yaradıcılığına həsr olunacaq. Başqa saylarımız isə yeni imzalar, yeni yazılarla oxucuların görüşünə gələcək.

*Havar Şəfiyeva*

# Kilsədə metafizik macəra

## Viktor Hüqonun "Paris Notr-Dam kilsəsi" romanı haqqında

İndi Parisin başlıca simvollarından sayılan, milyonlarla turistin ziyarət ocağına, dünya liderlərinin görüş yerinə çevrilmiş bu məbədi on doqquzuncu əsrin birinci yarısında köhnəliyin qalığı kimi paytaxtın yaraşığını pozduğuna görə sökmək istəyirdilər. Xalqın dinə, kilsəyə, bütövlükdə, keçmişinə xor baxdığı bir zamanda Hüqonun qüdrətli qələmi möhtəşəm əsərinin baş qəhrəmanına çevirdiyi Notr-Dam kilsəsini yenidən ucaltdı, onu tək Parisin də yox, bütün dünya incəsənətinin əbədi rəmzinə çevirdi.

Viktor Hüqonun iyirmi doqquz yaşında tamamladığı bu əsər 1831-ci ilin yazında işıq üzü görər-görməz müəllifinə böyük şöhrət qazandırdı. "Paris Notr-Dam kilsəsi" fransız ədəbiyyatında ilk tarixi romandır, hərçənd bu romanı sözün hərfi mənasında tarixi əsər saymaq da olmaz, çünki burada tarixdən çox şey olsa da, tarixi proseslərə, şəxsiyyətlərə yer verilsə də, yazıçı keçmiş zamanın bədii salnaməsini yaratmağı qarşısına məqsəd qoymayıb, tarixin yaddaşına yazılmış-yazılmamış hadisələrdən öz ideyaları, qəhrəmanları üçün fon, dekorasiya kimi yararlanıb. Romandakı aparıcı personajlar (Klod Frollo, Kvazimodo, Esmeralda, Feb de Şatoper) müəllif təxəyyülünün məhsullarıdır, yalnız şair-dramaturq Pyer Qrenquarın XV əsrdə yaşamış gerçək prototipi var. Başqa sözlə, bu roman tarixi yox, bəlli tarixi zaman kontekstinə salınmış dini-fəlsəfi romandır. Kitabın ilk fəslinin ilk cümlələri də buna dəlalət eləyir: "Düz üç yüz qırx səkkiz il altı ay on doqquz gün bundan əvvəl parislilər Qədim şəhərdə, Universitet məhəlləsində və Yeni şəhərdə gurlayan kilsə zənglərinin səsinə yuxudan oyandılar. Halbuki tarixdə 1482-ci ilin 6 yanvar gününə dair heç bir əlamətdar hadisə haqqında qeyd yoxdur. Həmin gün səhər çağı kilsə zənglərini hərəkətə gətirən, Paris əhalisini təşvişə salan heç bir qeyri-adi hadisə baş verməmişdi..." (tərcümə Mikayıl Rəfilinindir - yeri gəlmişkən, romanın adını "Paris Məryəm ana kilsəsi" kimi çevirənlərin olduğunu da xatırlayıram). Hərçənd əsər XV əsr Paris həyatının xronikası, insan mənzərələrinin gerçəkçi təsviri, real tarixin canlandırılmış versiyası kimi də maraqla oxunur.

Həcmi böyük olsa da, Hüqo ilk romanını altı aydan da az bir müddət ərzində birnəfəsə yazıb. Bundan sonra yaşadığı əlli dörd ildə daha bir neçə roman ortaya qoyubsa da, "Paris Notr-Dam kilsəsi" böyük yazıçının yaradıcılığında "Səfillər"dən sonrakı şərəfli yerini bu gün də qoruyub saxlayır. Müəllifin 1831-ci ilin fevralında əsərinə yazdığı kiçik bir girişi saymasaq, roman on bir kitabdan (bölümdən) ibarətdir. Hər kitab da özlüyündə fəsillərə bölünür.

***

"Paris Notr-Dam kilsəsi" - dini-idealist mesajlar, mənalarla yüklü, mistik kodlar, şifrələrlə kilidli metafizik dastandır. Əsərin süjetindən tutmuş kontrastlarına, kolliziyalarına qədər nəyi varsa - qəhrəmanların macəraları, çarpışmaları, törədilən cinayətlər, qətllər, hətta müəllifin yumoru, zarafatları belə metafizik xarakter daşıyır. Adı bəlli kilsənin özü elə metafizik aləmin simvoludur. Məbədin ətrafındakı küçələr, məhəllələr fani həyatın yükünü çəkən yerüstü dünyanın ayrı-ayrı fraqmentləridir. Notr-Dam kilsəsi Parisi basmış bulanıq insan selinin ortasında alınmaz qala kimi, sarsılmaz qaya kimi ucalan bir adadır. Bura Allahın evidir, Tanrı dərgahına sığınan kəsə zaval yoxdur.

İki fəsildən ibarət üçüncü kitabın "Paris Notr-Dam kilsəsi" adlı birinci fəslində Hüqo oxucunu bir sənət abidəsi kimi özündə mühafizəkar, ehkamçı, quru, zəhmli roman üslubundan sənətə, ürəyə yaxın əlvan, təmtəraqlı qotik üsluba keçidi, iki memarlıq məktəbinin sintezini əks etdirən kilsənin quruluşuyla, "Yüksəklikdən görünən Paris" adlı ikinci fəslində isə buradan baxanda Parisin görünüşüylə tanış eləyir. Yazıçı zəng qülləsindən, quş uçuşu hündürlüyündən paytaxtın seyrinə dalır, Parisdə qaynayan coşqun həyatı metafizik ucalıqdan Allahın qüdrət nəzəriylə bir baxışda görməyə çalışır. Kilsə oxucunun gözü qarşısında real, maddi dünyanın fövqündə duran ideal, mistik bir aləm kimi açılır. Krallara baş əyməyən, ordulara yenilməyən bu aləmin öz qanunu, öz nizamnaməsi var. Buranın kralı Tanrı, kardinalı Məryəm oğlu İsadır. Bu dünyada zaman əldən-ələ keçmir, günlər dondan-dona girmir, burada hər gün bir gün, hər zaman eyni zamandır.

Romanın əsas qəhrəmanları adı portuqal dilində zümrüd mənası verən qaraçı qızı Esmeraldanın gözəlliyi ətrafında birləşirlər, hər birinin mahiyyəti gözlərindən, vücudundan həyat fışqıran bu saf, sadəlövh, şən qıza münasibətdə açılır (sonralar Dikkens, Dostoyevski kimi böyük yazıçılar da eyni üsuldan gen-bol yararlanacaqlar). Qızı mühasirəyə almış dörd aşiqin hər biri Esmeraldaya dördbucağın öz payına düşən bucağından baxır. Gözəlliyə münasibət onların şəxsiyyətini dəyərləndirməyin başlıca meyarıdır.

***

Şərq şairlərinin "zahid" adlandırdığı tipə tam uyğun gələn qaraqabaq, qaradinməz şəriətçi, otuz altı yaşına yeni çatsa da, vaxtından qabaq qocalmış, üzü qırışmış, saçı çallaşmış arxidiakon Klod Frollo nücum, kimya elmiylə başını qatmağa çalışır, fəqət canında qiyam qaldırmış şeytanı yuxuya verə bilmir. Bu yaşınacan qadın mehrinin nə olduğunu bilməyən baş keşiş Esmeraldanı tanıyandan bəri qara mantiya altında boğduğu ehtirasının, yasaq şəhvətinin öhdəsindən gələ bilmədiyinə görə bədəninə xəsarət yetirməklə içindəki şeytanı vəsvəsədən qurtulmağa çalışır. Müəllif bu din xadimini ruhunu Mefistofelə satmış Fausta bənzədir. İblis onun can evini çoxdan kirələyib.

Keşişin bir zaman oğulluğa götürdüyü atılmış körpə - qozbel, axsaq, kar, kor zəngçi Kvazimodo dünyaya gələli heyvan kimi ömür sürüb, uşaqlığından məbəddə yaşayıb, işi, vəzifəsi nəhəng kilsə zənglərini səsləndirmək olub. Zəng səsi onun qulaqlarını batırdığından heç nə eşitmir. Adının da "demək olar", "elə bil", "guya" ifadələrinə yaxın bir mənası var. Ruhu da bədəni kimi kar-kordur, xeyiri şərdən seçə bilmir, nə mərhəmət, nə də vicdan tanıyır. Yalnız cəza meydanında susuzluqdan yananda Esmeraldanın ona verdiyi bir içim su Kvazimodonun şikəst, lal-kar ruhunu hərəkətə gətirir, Tanrı onun uçuq, xaraba komasına qonaq gəlir. Kvazimodonun ruhu da bədəni kimi güclü çıxır, çünki onun intuisiya dalğalarının axışına maneçilik törədəsi nə intellekti, nə də instinkti var; başqa sözlə, bu ruhun qarşısında əngəl olası nə bir yetkin ağıl, nə də sağlam, mükəmməl bədən var.

Ayğır kimi harın, arsız, kefcil Feb arxidiakon Frollonun antipodudur, o da Şərq şairlərinin "rind" dediyi xaraktera uyğun bir tipdir. Sonradan avaralıq, sərgərdanlıq yolu tutan şair-dramaturq, filosof Pyer Qrenquarı da bu tipdən saymaq olar (hərçənd gileyli şair xasiyyətcə nikbin, xudbin nişançının tərs üzüdür), ancaq anarxist oğrular, dilənçilər səltənətinə sığınan uğursuz filosofdan fərqli olaraq Feb de Şatoper krala xidmət göstərən igid, qoçaq nişançı, qayda-qanuna tabe nizam-intizamlı zabit, kübar cəmiyyətin zərif qəlbli yetirməsidir. Onun zahiri ehtişamına, parıltısına uyan Esmeralda axtardığı ağatlı oğlan, xilaskar obrazını rəsmən özünə ər seçdiyi şairin yox, məhz cəngavər Febin timsalında tapır, Feb isə sadəlövh qızın evlənmək barədə sualına kübar, tox istehzayla cavab verir. İnsanların ruhunu xilas eləmək keşiş Frollonun birbaşa vəzifəsi, missiyası olsa da, o da Esmeraldanı həyatın qurduğu tələlərdən, fələyin ağır zərbələrindən qorumaq barədə yox, canına daraşmış şəhvət cinindən, mübtəla olduğu qara sevdadan qurtulmaq barədə düşünür.

davamı növbəti sayımızda



*Fəxri Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Şənbə üçün Nəzm



## SƏRÇƏ BALASI

İlahi, mənə yox, mən istəmirəm,
İlahi, yazığın gəlsin bu qıza.
Elə eləmə ki,
oğlanlar, qızlar,
Kişilər, arvadlar gülsün bu qıza.

Elə eləmə ki,
vüsal yerinə
Göz yaşı danışsın, qəhər danışsın.
Bir qızdan bir bölük adam danışsın,
Bir qızdan bir böyük şəhər danışsın.

Elə eləmə ki, bu qız bu eldə,
Dilə-dişə düşsün məndən ötəri...
Sərçə balasıdı bu qız bu saat,
Boynunu uzadıb dəndən ötəri.

Bu qızın
bu saat məndən umduğu,
Məndən istədiyi dən məndə yoxdu.
Bu qız ay istəyir, ay yoxdu məndə,
Bu qız gün istəyir gün məndə yoxdu.

Sevgi yoxdu məndə sevəm bu qızı,
Elə axan suyu belə döndərim.
Çevirəm özümü kəpənəyə mən,
Bu qızı çiçəyə, gülə döndərim.

Səndən çiçək olmaz, səndən gül olmaz,
Məndən də kəpənək, sərçə balası.
Durduğumuz yerdə biz niyə duraq,
Biz niyə tərpənək, sərçə balası?

Lap belə tərpəndik, lap belə getdik,
Sən deyən, mən deyən olası deyil.
Sərçə balasısan sən bu dünyada,
Şair ki, kəpənək balası deyil.

Kəpənək olmuşam dünyada bir vaxt,
Qanadım da olub bilmək istəsən.
İstəyim də olub özümə görə,
İnadım da olub, bilmək istəsən.

O qanad,
o inad,
o istək hanı,-
O qanad,
o inad,
o istək öldü.
Bircə gün çəkmədi gəlib-getməyi,
Kəpənək doğuldu, kəpənək öldü.

Ağca pambıq kimi,
ağca yun kimi,
Diddilər, diddilər o kəpənəyi.
Daraşıb qanadlı, əlli-ayaqlı,
Yedilər, yedilər o kəpənəyi.

Hanı o kəpənək, hanı o sevgi?-
Yaşamır, yaşamır, sərçə balası.
Bu ağ kəpənəklər o kəpənəyə,
Oxşamır, oxşamır, sərçə balası.

...Sən ey yeri, göyü yaradan kişi,
Uzaq görünürmü ordan yer sənə?!
Bu qıza bu boyda sevgi vermisən,
Mənə də bir azca sevgi versənə.

Səni də düşsənə mənim günümə,
Sənin göyün olsun,
quşun olmasın.
İlahi, neyləsən, sən mənə eylə,
İlahi, bu qızla işin olmasın...

## GECƏNİN BİR ALƏMİ

Sonra nə oldusa, yadıma gəlmir,
Onu bilirəm ki, qanım qaynadı.
Onu bilirəm ki, ruhum oynadı,
Sonra nə oldusa, yadıma gəlmir.

Tez durub geyindim, çıxdım küçəyə,
Küçə sizə sarı çəkirdi məni.
Ulduz sizə sarı, ay sizə sarı,
Gecə sizə sarı çəkirdi məni.

Gecədən, ulduzdan, aydan da betər,
Ürək sizə sarı çəkirdi məni.
Fələyə nə deyim, tutub qolumdan,
Fələk sizə sarı çəkirdi məni.

Küçənin, gecənin, ulduzun, ayın,
Ürəyin sözündən çıxa bilmədim.
Tanrının sözündən çıxa bilmədim,
Fələyin sözündən çıxa bilmədim.

Alnıma toxundum, gördüm tərləyib;
Dodağıma baxdım, uçuqdu gördüm.
Bütün darvazalar gördüm bağlıdı,
Sizin darvazanız açıqdı gördüm.

Keçdim darvazadan, çıxdım həyətə,
Arzu, istək məni yaxalamışdı.
Ulduz oyaq idi, ay oyaq idi,
Tanrı oyaq idi göyün üzündə...
Qapınızın zəngi yuxulamışdı.

Qapını oyatdım, zəngi oyatdım,
Oyatdım yuxudan zəngin səsini.
Daha düşünmədim, fikirləşmədim
İşin avandını, işin tərsini.

İş belə oldu ki, zəngin harayı,
Yuxudan yarımçıq qaldırdı səni.
Durna qatarında uçub gedirdin,
Durna qatarından saldırdı səni.

Sən oyanan kimi, sən duran kimi,
Əllərin oyanıb qalxdı yuxudan.



*Eldar Baxış*

Yastığın üstünə sərilib qalan,
Tellərin oyanıb qalxdı yuxudan.

Çiyinlər oyandı -pambıq çiyinlər;
Addımlar oyandı- kövrək addımlar.
Nə gözəl olurmuş, Allah, yuxudan
Yarımçıq qatarda durandа gözəl qadınlar.

Həmişəki kimi “eşş” eləmədin,
Bir sözü çevirib beş eləmədin,
Sağını-solunu eşələmədin,
Yüyürdün qapıya, çatdın qapıya.

Uzandı işığa süd barmaqların,
Evin süd işığı alışdı, yandı.
Sonra nə oldusa, yadıma gəlmir,
Sonra vaxt dayandı, zaman dayandı.

Sonra söndü evin süd işıqları,
Elə bil əridi, çürüdü, getdi.
Ulduzun yanına, ayın yanına,
Tanrının yanına yeridi getdi.

O süd işığından nə qaldı bizə?
Ağ yastıq, ağ döşək, ağ yorğanüzü.
Sənin baxışının odu, alovu,
Mənim baxışımın çınqısı, közü.
Od-oda qarışdı, alov-alova,
Köz-közə qarışdı, çınqı-çınqıya.
Əl ələ qarışdı, barmaq barmağa,
Dil dilə qarışdı, yanğı yanğıya.

Sən mənə dedin ki, lap elə belə?
Mən sənə dedim ki, lap elə belə.
Bu mənim telimdi, bu sənin telin.
Axtara bilirsən, tapa bilirsən,
Axtar elə-belə, tap elə-belə.

Gecə çırpınırdı, gecə əsirdi,
Gecə titrəyirdi, nə titrəyirdi,
Sinəmiz gecəni: -bu xoş keçəni
Bir daş ütü kimi ütüləyirdi.

Gecənin sümüyü sürmə olmuşdu,
Dişinə dəyirdi dişi gecənin.
Bütün qitələri bölüşdürmüşdük,
Biri bizim idi, beşi gecənin.

Sonra nə oldusa, yadıma gəlmir,
Onu bilirəm ki, səhər açıldı.
Onu bilirəm ki, əlim səyridi,
Açıq pəncərədə baxdım səmaya
Tanrı bizə baxıb gülümsəyirdi...

## “Pullu adam”

Sənin pulun var.
mənim tanrım.
Sənin evin var,
mənim ilhamım.

Sənin maşının var,
mənim qələmim.
Sənin telefonun var,
mənim azadlığım.

Sən görən işi mən görə bilmərəm,
mən görən işi sən.
Sən sevinc içində üzürsən,
mən dərd içində.

Günlərin bir günü ölüb gedəcəyik,
sənin pulun, evin, bağın,
maşının, telefonun,
sevincin qalacaq bu dünyada,
mənim tanrım, ilhamım,
şeirim, qələmim,
azadlığım, dərdim.

***

Bir də baxırsan ki, göyün üzündə
ayın yarısı var, yarısı yoxdu
Kəndimizə getdim, qocalar gördüm,
kişisi yaşayır, qarısı yoxdu, -
bu vaxtdan nə desən gözləmək olar.

Uşaqlar gördüm ki, indi hamısı
olub ev yiyəsi, eşik yiyəsi.
İkəmmi,
üçəmmi, deyə bilmərəm,
doğub Həsigilin qaşqa düyəsi, -
bu vaxtdan nə desən gözləmək olar.

Həsinin özü də gördüm ki, elə
Gəlib üç-dörd uşaq atası olub.
Ətə-qana dolub bizim Süleyman,
ortası bir palıd ortası olub, -
bu vaxtdan nə desən gözləmək olar.

Bu vaxtdan nə desən gözləmək olar,
dünyanın çarxını döndərə bilər,
İstəsə cənnətin mələklərini
yığıb cəhənnəmə göndərə bilər.

***

Qərib nar əkər, nar əkər,
Narı nar olmaz, nar olmaz.
Qərib deyər: qərib qızdan
Mənə yar olmaz-yar olmaz.

Sünbülü qıçada qalar,
Buğdası puçada qalar,
Alması taxçada qalar,
qalar, saralmaz-saralmaz.

Kim qəribə arxa çıxar,
Qərib birdən yoxa çıxar,
Dərd əlindən dağa çıxar,
Dağda qar olmaz-qar olmaz.

Tək dedilər - təklədilər,
qanına yeriklədilər.
sonra da dərdini alıb
dağa-daşa yüklədilər,
çəkə bilmədi-bilmədi.

Əsim-əsimcə əsdilər,
öldürməyə tələsdilər,
günün günorta çağında
ağacı elə kəsdilər, -
kölgə bilmədi-bilmədi.

Xallandı gül - butasında.
nər qarnında - qartasında.
Bir şairi öldürdülər
bir ölkənin ortasında, -
ölkə bilmədi-bilmədi.

***

Sevgi bitmir, istək bitmir,
Neynirəm bu şoran yeri.
Mənim könlüm dağ yeridi,
Sənin könlün aran yeri.

Toxum ver əkə bilirəm,
Ağrı ver çəkə bilirəm,
Özümə qiblə bilirəm,
Sən o yatıb-duran yeri.

Sənin o evin-eşiyin,
Sənin o itin, pişiyin,
Sənin o yorğan-döşəyin,
Dünyanın qurtaran yeri.






## Avropa Kubokunda 16 cüdoçumuz iştirak edəcək

Azərbaycanın yeniyetmə cüdoçuları Slovakiyanın Samorin şəhərində keçiriləcək Avropa Kubokunda iştirak edəcəklər. Cüdo Federasiyasından bildiriblər ki, ölkəmiz yarışda oğlanlar arasında 8 çəki dərəsində 16 cüdoçu ilə təmsil olunacaq. Avropa Kubokunda milli komandanın üzvlərindən Anar Quliyev, İbrahim Talıbov (hər ikisi 50 kiloqram), Məhəmmədəli Hüsiyev, Rəsul Əlizadə (55 kiloqram), Zeyd Ələsgərov, İlkin Qarayev (hər ikisi 60 kiloqram), Əli Hümbətov, Özqan Quliyev (hər ikisi 66 kiloqram), Məhəmməd Ağakişiyev, Səid Şərifov (73 kiloqram), Amin Mehdiyev, Abdullah Rəhmətov (81 kiloqram), Nurəddin Əliyev, Emin Şirinov (hər ikisi 90 kiloqram), Tunar Fərzəliyev, Sübhan Axundov (hər ikisi +90 kiloqram) gücünü yoxlayacaq. Cüdoçulara yeniyetmə oğlanlardan ibarət yığmanın baş məşqçisi Emin İskəndərov və məşqçi Nicat Şıxəlizadə rəhbərlik edəcək. Yarışda “A” kateqoriyalı beynəlxalq dərəcəli hakim Rəşad Əliyev ədalət təmsilçiləri arasında yer alacaq.

Qeyd edək ki, fevralın 15-16-da təşkil olunacaq Avropa Kubokunda 32 ölkədən 707 idmançı mübarizə aparacaq.

## Taekvondoçumuz qızıl medal qazanıb



Azərbaycanın gənc taekvondoçusu Humay Dadaşova Antalya şəhərində keçirilən G-2 kateqoriyalı Türkiyə Açıq beynəlxalq turnirində qızıl medal qazanıb. Bu barədə Azərbaycan Taekvondo Federasiyasından məlumat verilib. 46 kiloqram çəki dərəcəsində çıxış edən idmançı bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

## Bakıda bədii gimnastika üzrə beynəlxalq turnir

Bakıda bədii gimnastika üzrə “AGF Trophy” turniri keçiriləcək. Beynəlxalq yarış Milli Gimnastika Arenasında təşkil olunacaq. Turnirdə 14 ölkənin bədii gimnastları halqa, top, gürzlər və lent ilə bacarıqlarını nümayiş etdirəcəklər. Qeyd edək ki, “AGF Trophy” turniri martın 28-30-da keçiriləcək.




## Mbappe Fransa millisinə qayıdır



İspaniyanın “Real Madrid” klubunun futbolçusu Kilian Mbappe Fransa millisinə qayıdır. Bu barədə yığmanın baş məşqçisi Didye Deşam açıqlama verib. Onun sözlərinə görə, 27 yaşlı hücumçu komandanın mart ayındakı təlim-məşq toplanışına dəvət ediləcək. Onun UEFA Millətlər Liqasında Xorvatiya seçməsi ilə 1/4 final oyunlarında meydana çıxacağı gözlənilir. Qeyd edək ki, Kilian Mbappe ötən ilin payızında Fransa millisinin ardıcıl iki təlim-məşq toplanışında iştirak etməyib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4579**
**Sifariş: 346**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova